# "Güclüyük, qalib gələcəyik!"

*Sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin bölmələri növbəti dəfə təxribat törətmək məqsədi ilə mövqelərimizi artilleriya atəşinə tutdu, hücuma keçməyə cəhd göstərdi. Qüdrətli Azərbaycan Ordusunun bölmələri bu hücumun qarşısını qətiyyətlə aldı. Düşmən böyük itki verərək geri çəkildi. Əks-hücum əməliyyatı Vətən müharibəsi kimi davam etməkdədir.*

İşğalçı ölkə Azərbaycan Ordusu tərəfindən ağır zərbə alır və ordumuz qarşısında çox zəif olduğunu açıq şəkildə hiss edir. Artıq bu zərbə axırıncı zərbə olacaq və ermənilərin torpaqlarımızdan çıxması ilə başa çatacaq.

Fəxrlə deyə bilərəm ki, bu gün Azərbaycan Ordusunun bütün şəxsi heyəti mübariz ruhludur. Vətəni uğrunda göz qırpmadan döyüşlərə atılmağa, düşməni məhv etməyə hazırdır! Gedən döyüşlər də onu sübut edir. Torpağı, eli, obası onun üçün müqəddəsdir. Belə ruha malik olanların qarşısında isə duruş gətirmək mümkünsüzdür. Əslində, bu gün tək Azərbaycan əsgəri yox, kiçik və böyüyündən, cavan və yaşlısından, kişi və qadınından asılı olmayaraq bütün cəmiyyət ölkəmizin ərazi bütövlüyünün bərpası üçün torpağına öz qanını halal etməyə hazırdır!

Ən böyük arzum işğalda olan torpaqlarımızı azad görməkdir. Əlbəttə, bu asan başa gəlməyəcək. Ancaq Azərbaycan Ordusu çətini asan etmək gücündədi. Ordumuzun günbəgün qüdrətlənməsi, hərbçiyə olan xüsusi diqqət və qayğı bizim hamımızın mənəvi-psixoloji vəziyyətinə birbaşa təsir edir. Arxamızda güclü dövlətin durduğunu hiss edəndə daha mübariz olur, torpaqlarımızın



işğaldan azad edilməsi üçün alışıb yanırıq.

Biz güclüyük. Təkcə silah-sursatımızla, hərbi texnikamızla, mənəvi-psixoloji hazırlığımızla deyil, həm də haqqımızı tələb etməkdə, ədalətimizə güvənməkdə güclü və qüdrətliyik. Bu dəyərlərdi Azərbaycan Ordusunun şəxsi heyətini qələbədən-qələbəyə aparan. Qəribsədiyimiz torpaqlar, zirvələr, yüksəkliklər üçrəngli bayrağımızın həsrətindədir. Azərbaycan əsgəri tezliklə həsrətə, intizara son qoyacaq!

**Kiçik çavuş**
**Elcan QULİYEV**